# Azərbaycan Milli Konservatoriyasında Milli Musiqi Günü qeyd olunub

**Milli Musiqi Gününün növbəti ənənəvi tədbiri Azərbaycan Milli Konservatoriyasında keçirilib.**

AZƏRTAC xəbər verir ki, konservatoriyanın rektoru Xalq artisti Siyavuş Kərimi Üzeyir bəy Hacıbəylinin adı ilə bağlı olan əlamətdar günün əhəmiyyətindən, dahi bəstəkarın yaradıcılığından, Azərbaycan musiqisinin inkişafında göstərdiyi xidmətlərdən danışıb.

S.Kərimi bildirib ki, Üzeyir bəy Azərbaycana Ulu Tanrı tərəfindən bəxş olunmuş nadir simalardandır. Azərbaycan xalqı tərəfindən hər zaman Üzeyir bəyin xatirəsi əziz tutulacaq, musiqimizin inkişafındakı xidmətləri minnətdarlıqla qeyd ediləcək.



Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli deyib: "Bizlər Üzeyir Hacıbəylini hər zaman dahi bəstəkar, dahi insan kimi yada salırıq. Xoşbəxt xalqıq ki, Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov kimi görkəmli bəstəkarlarımız olub". Sonra musiqi proqramı təqdim edilib. Konservatoriyanın tələbələrindən ibarət xalq çalğı alətləri orkestrinin müşayiəti ilə xanəndələr Xəyal Hüseynov, Gülzar Fərəcova və Güllü Muradovanın ifasında "Qarabağ şikəstəsi" səsləndirilib.

Azərbaycan.- 2024.- 19 sentyabr (№204).- S. 15.